# 35 il əvvəl

## I Qarabağ müharibəsinə gedən yol...

*Şahanə XANKİŞİYEVA*

İl 1988, məkan Əsgəran... Bu gün Birinci Qarabağ müharibəsinin başlamasına səbəb olan Əsgəran hadisənin 35-ci ildönümüdür.

Ötən əsrin 80-ci illərinin sonunda Ermənistanın tarixi torpaqlarımıza açıq şəkildə ərazi iddiaları və etnik təxribatları, terror əməlləri hərbi zorakılıqla nəticənlənib. Buna səbəb mərkəzi hakimiyyəti zəifləmiş, son zamanlarda başı özünə





## ƏSGƏRANdan başladı

qarışan SSRİ-nin müstəmləkə dövlətləri idarə etməkdə çətinlik çəkməsi idi. Belə ki, o vaxtkı rejimin rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR-nin rəhbərliyi və xaricdəki erməni diasporu 1980-ci illərin sonlarında SSRİ-nin süquta doğru irəliləməsindən istifadə edərək Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Ermənistan SSRİ-yə birləşdirilməsi üçün hərəkətə keçmişdilər. Artıq 1987-ci ilin sonlarında Ermənistan SSRİ-in Qafan rayonunda azərbaycanlıların öz tarixi torpaqlarından qəddarlıqla deportasiya prosesi başlamışdı. Bu deportasiya prosesində 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından məcburi şəkildə qovulub, onlardan 216-sı vəhşicəsinə qətl olunub, 1154 nəfər isə yaralanıb. Erməni zorakılığından həyatlarını xilas etmək üçün dədə-baba torpaqlarından didərgin düşən soydaşlarımız Azərbaycan ərazisinə sığınmaq məcburiyyətində qalıblar. Köçürülmə yalnız bu illərdə deyil, 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü illərdə də həyata keçirilib. Təkcə 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSRİ ərazisindəki tarixi yurdlarından kütləvi surətdə Azərbaycana sürgün olunub. Xüsusilə qocalar və körpələr ağır köçürülmə şəraitinə, iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi əziyyətlərə dözməyərək həlak olublar.

**Əslinə qalsa...**

Qarabağ məsələsi ilə bağlı ermənilərin ilk nümayişi doğma Xankəndinin mərkəzində, 1988 ci ilin fevralın 13-də keçirilib. Elə bu ərəfələrdə erməni diasporu təxribat xarakterli müxtəlif mitinqlər təşkil edirdi. 22 fevral - Dağlıq Qarabağ münaqişəsində qanla nəticələnən ilk toqquşma olaraq tarixə həkk olundu. Səbəb isə 1988-ci il fevralın 20-də DQMV-nin Ermənistan SSRİ-nin tərkibinə daxil edilməsi ilə bağlı "sənəd" idi. Saxtalaşdırılmış həmin sənəd DQMV Sovetinin növbədən kənar sessiyasında "qəbul edilmişdi". Əsas isə səsvermə kimi göstərilirdi. Əslində, bu səsvermənin prosedurları pozularaq saxtalaşdırılmışdı.

Hökumətin Dağlıq Qarabağın Ermənistan SSRİ-nin tərkibinə birləşmək qərarı Ağdam və Əsgəran sakinlərini ayağa qaldırmışdı. Rayonun sakinləri bu haqsızlığa qarşı dinc nümayiş keçirdilər. Buna baxmayaraq ermənilər 2 gənci atəş açaraq qətlə yetirirlər. Hər şey bundan sonra başlayır... SSRİ-nin baş prokurorunun birinci müavini F.Katusev Mərkəzi Televizyadakı açıqlamasında baş verənləri təsdiqləyir. Ardınca, fevralın 25-də daha iki azərbaycanlı erməni faşizminin qurbanı oldu...

**İlk şəhidlərimiz...**

Əli Hacıyev və Bəxtiyar Quliyev da mitinqçilər sırasında idilər və haqsızlığa qarşı var səsləri ilə haqqlarını tələb edirdilər. Mitinqçilərə doğru açılan qəfil atəşlə Əli və Bəxtiyar Dağlıq Qarabağ münaqişəsinin ilk şəhidləri oldular. Əli 23, Bəxtiyar isə hələ 16 yaşında idi. Kim bilir hansı arzu, hansı istəkləri ilə birlikdə torpağa qovuşdular. Onlar doğma torpaqlarda - Ağdamda Şəhidlər xiyabanında dəfn olunublar. Bu mərtəbəyə ucalan insanlar ölmürlər, əksinə bir əbədilik qazanırlar. Müstəqillik, torpaqlarımızın toxunulmazlığı uğrunda canlarını fəda etmiş şəhidləri bir amal birləşdirirdi: Biz min ölər, bir dirilərik, təki, Vətən sağ olsun!